

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 27 (23.914)

*10 fevral 2022-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Ümummilli liderimiz Heydər Əliyev deyirdi:



*Naxçıvan Muxtar Respublikasının muxtariyyət, dövlətçilik statusu daimidir, əbədidir.*

* * *

*Naxçıvanın muxtariyyəti tarixi hadisədir. Bu, çətin bir dövrdə böyük mübarizənin nəticəsi olubdur.*

* * *

*Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir. Biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən ən böyük amildir. Biz bu amili qoruyub saxlamalıyıq.*

* * *

*Naxçıvan Muxtar Respublikasının yaradılması Azərbaycan xalqının olduqca mürəkkəb siyasi şəraitdə əldə etdiyi böyük tarixi nailiyyətdir.*

* * *

*Naxçıvan muxtar respublikadır. Azərbaycanın tərkibindədir. Bu, beynəlxalq müqavilələr nəticəsində yaranmış statusdur. Onu heç kəs dəyişdirə bilməz.*

* * *

*Naxçıvana muxtariyyət vermək, Moskva, Qars müqavilələrində Naxçıvanın müqəddəratını o illərdə həll etmək asan məsələ deyildi. Amma o vaxt milli mənafeyini qoruyan adamlar bunu etdilər. Mən bunu tarixi nailiyyət hesab edirəm... Kim Azərbaycanın milli mənafelərinin keşiyində durubsa, ona xidmət göstəribsə, o insanlar bizim tariximizdə həmişə hörmətlə yada salınmalı və tariximizə daxil olmalıdırlar.*

## Naxçıvan Muxtar Respublikasının yaranmasının 98-ci ildönümü qeyd olunub





Fevralın 9-da – Naxçıvan Muxtar Respublikasının yaranmasının 98-ci ildönümündə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və Ali Məclisin əməkdaşları Naxçıvan şəhərindəki Dövlət Bayrağı Meydanı və Muzeyini ziyarət etmişlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir: Bu gün Naxçıvan Muxtar Respublikasının yaranmasının 98-ci ildönümüdür. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, ***"Naxçıvanın muxtariyyəti tarixi hadisədir. Bu, çətin bir dövrdə böyük mübarizənin nəticəsi olubdur".*** Naxçıvanın muxtariyyətinin 2 mərhələsi xüsusilə çətin və mürəkkəb dövr olmuşdur. Bunlardan biri 1920-1924-cü illəri əhatə edən muxtariyyətin yaranması, digəri isə 1990-1993-cü illərdə muxtariyyətin qorunub saxlandığı dövrdür. Naxçıvan 1990-1993-cü illərdə ümummilli liderimizin də dediyi kimi ***"Taleyin ümidinə buraxılmış tənha ada"***nı xatırladırdı. Doğrudan da, əgər 1920-1924-cü illərdə böyük mübarizənin nəticəsində muxtariyyət statusu qazanılmışdısa, 1990-1993-cü illərdə isə Naxçıvan taleyin ümidinə buraxılmış tənha bir adanı xatırladırdı. Ölkə Prezidentinin də dediyi kimi, ***"Heydər Əliyev öz vətəninə, doğulduğu yerə – Naxçıvana gəldi. Onun gəlişi Naxçıvanı bəlalardan qurtardı. Naxçıvanlılar Heydər Əliyevi qorudular, Heydər Əliyev isə Naxçıvanı qorudu".***

Ali Məclisin Sədri muxtariyyətin yaranmasında və qorunmasında xidməti olanlara ehtiramını bildirmiş, şəhidlərin əziz xatirəsini yad etmiş, muxtar respublikanın qorunmasında, sabitliyin möhkəmlənməsində və inkişafında əməyi olanlara təşəkkürünü bildirmişdir.

Sonra muzeyə baxış olmuşdur. Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 22 avqust tarixli "Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması haqqında" Sərəncamına əsasən Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyi yaradılmışdır. Muzey muxtariyyət tarixinin öyrənilməsi və təbliğində mühüm əhəmiyyətə malikdir. Muzeyin fondunda 167 eksponat mövcuddur ki, bunlardan 144-ü ekspozisiya zalında nümayiş etdirilir. Muzeydə ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının ali qanunverici orqanında qəbul olunan "Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında" Qərarın surəti və həmin tarixi günə aid fotoşəkillər nümayiş olunur. Tarixən Naxçıvan ərazisində mövcud olmuş dövlətlərin, eləcə də Naxçıvan xanlığının bərpa olunmuş bayraqları, gerblər və inzibati xəritələri, Naxçıvan xanlığının süvari dəstələrinə verilən bayraqlar, döyüşçü libasları, Naxçıvan Muxtar Respublikasının müxtəlif illərdə qəbul olunmuş konstitusiyaları, pul dövriyyəsində işlədilmiş qədim sikkə nümunələri muzeyin ekspozisiyasında yerləşdirilmişdir.

Ali Məclisin Sədri Naxçıvanın Azərbaycanın dövlətçilik tarixində əhəmiyyətini vurğulamış, ümummilli liderimizin ***"Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən ən böyük amildir. Biz bu amili qoruyub saxlamalıyıq"*** fikirlərini diqqətə çatdırmış, muzeyin yeni eksponatlar, xəritələr, muxtar respublikanın tarixi ilə bağlı nəşr olunan kitablarla zənginləşdirilməsi, muxtariyyətlə bağlı araşdırmaların davam etdirilməsi barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Muxtariyyətin 98-ci ildönümünə həsr edilən tədbir keçirilib



*AMEA Naxçıvan Bölməsində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun "Tədbirlər Planı"na əsasən Naxçıvan Muxtar Respublikasının yaranmasının 98-ci ildönümünə həsr edilən tədbir keçirilib.*

Tədbiri giriş sözü ilə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açıb. Akademik "Naxçıvanın muxtariyyət statusu və beynəlxalq müqavilələr" mövzusunda çıxış edərək bildirib ki, XX əsrin 20-ci illərində Naxçıvan diyarı çox çətin və mürəkkəb hadisələrlə qarşılaşıb, Zəngəzurun itirilməsi ilə Azərbaycandan ayrı düşüb, məkrli düşmənimiz olan erməni millətçiləri Naxçıvanı tutmaq üçün hər cür vasitələrə əl atıblar. Lakin qəhrəman naxçıvanlılar bölgənin işğal edilməsinə yol verməyib, onu qoruyub saxlayıb və Azərbaycanla birləşməsinə nail olublar.

Vurğulanıb ki, naxçıvanlılar bu diyarı erməni işğalından qorumaq üçün 1918-ci il noyabrın 18-də Araz-Türk Cümhuriyyəti adlı respublika yaradıblar. Bu cümhuriyyətin yaradılmasında başlıca məqsəd bölgənin erməni işğalı altına düşməsinə imkan verməmək idi. Naxçıvan əhalisi müstəqilliyini qorumaq əzmi ilə buna nail oldu.

Qeyd olunub ki, ümummilli liderimiz Heydər Əliyev Naxçıvanda fəaliyyət göstərdiyi dövrdə – 1992-ci ilin mart və avqust aylarında Türkiyə Respublikasına səfəri zamanı Moskva və Qars müqavilələrini yenidən gündəmə gətirib. Dahi rəhbər dünya ictimaiyyətinin diqqətini Ermənistanın təcavüzkar siyasətinə yönəltməklə, Naxçıvanın muxtariyyət statusuna ikinci həyat bəxş etməklə Ermənistana ilk və ən böyük beynəlxalq siyasi məğlubiyyət yaşadıb.

İsmayıl Hacıyev bildirib ki, Naxçıvanın muxtariyyət statusunun hüquqi cəhətdən möhkəmləndirilməsində 1995-ci il noyabrın 12-də qəbul edilmiş müstəqil Azərbaycan Respublikası Konstitusiyasının mühüm rolu olub.

Diqqətə çatdırılıb ki, müstəqillik illərində Naxçıvan Muxtar Respublikası blokada şəraitinin yaratdığı çətinliklərə baxmayaraq, hərtərəfli, dinamik və dayanıqlı inkişafa nail olmuşdur. Ali Məclis Sədrinin məqsədyönlü fəaliyyəti, qətiyyətli mövqeyi, yüksək idarəetmə bacarığı, ulu öndər Heydər Əliyev siyasətinə sədaqəti Naxçıvanın uğurlu inkişafını təmin edib.

Tədbirdə Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev, Naxçıvan Müəllimlər İnstitutunun rektoru, dosent Azad Novruzov və "Naxçıvan" Universitetinin rektoru, dosent Nurlana Əliyevanın çıxışları dinlənilib.

**Gülcamal TAHİROVA**

## "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir" adlı tədbir olub



*Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki Daimi Nümayəndəliyində Naxçıvan Muxtar Respublikasının yaradılmasının 98-ci ildönümünə həsr olunmuş "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir" adlı tədbir keçirilib.*

Əvvəlcə ümummilli lider Heydər Əliyevin, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda şəhid olmuş Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən Daimi Nümayəndəliyin rəhbəri Bəxtiyar Əsgərov qədim, zəngin, çoxəsrlik tarixə, mədəniyyətə, dövlətçilik ənənələrinə malik və "Şərqin qapısı" adlandırılan Naxçıvanın keçdiyi mürəkkəb və çətin, eyni zamanda şərəfli tarixi inkişaf yolundan bəhs edib. Bildirib ki, bu gün Naxçıvanın 98-ci ildönümünü böyük qürur və iftixar hissi ilə qeyd etdiyimiz muxtariyyəti böyük tarixi, hərbi-siyasi və diplomatik mübarizələrin nəticəsi kimi meydana çıxıb, gərgin, ağır, eyni zamanda şərəfli bir yol keçib. Diqqətə çatdırılıb ki, ümummilli liderimiz Heydər Əliyevin bu muxtar diyarı, onun varlığını, tarixini, ənənələrini həyatı bahasına necə qoruyub saxladığını, inkişaf etdirdiyini, bu günümüzə əmanət etdiyini elmi, siyasi-ideoloji baxımdan tədqiq etmək, öyrənmək və gələcək nəsillərə çatdırmaq böyük əhəmiyyət kəsb edir. Naxçıvan Muxtar Respublikasının müxtəlif dövrlərdə yubileylərinin keçirilməsi muxtariyyətin xalqımız, dövlətçiliyimiz üçün nə qədər böyük əhəmiyyət daşıdığının təsdiqidir.

Vurğulanıb ki, 98 illik bir tarixə malik Naxçıvan Muxtar Respublikası müstəqillik illərində inkarolunmaz böyük bir tarixi inkişaf yolu keçib. Prezident cənab İlham Əliyevin muxtar respublikaya tarixi səfərləri, Naxçıvan Muxtar Respublikasının yaradılmasının yubileylərində proqram xarakterli çıxışları, muxtar respublikada son illərdə görülən işlər, həyata keçirilən quruculuq tədbirləri ulu öndər Heydər Əliyevin siyasi kursunun uğurla, layaqətlə davam etdirilməsinin nəticəsidir. Ardıcıl, düşünülmüş, uzaqgörən siyasətin nəticəsində bu gün Naxçıvan tarixində görünməmiş inkişaf dövrünü yaşayır. Muxtariyyət statusu qazanmasını və Naxçıvan Muxtar Respublikasının 98-ci ildönümünü böyük nailiyyətlərlə qeyd edir.

Tədbirdə Azərbaycan Respublikası Milli Məclisinin deputatlarından tarix elmləri doktoru, professor Anar İsgəndərov, Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli, Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini Jalə Əliyeva, Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyasının sədri Səttar Möhbalıyev, Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov, Hikmət Babaoğlu çıxış ediblər.

Çıxışlarda Naxçıvan Muxtar Respublikasının inkişaf modelindən, blokada şəraitində olmasına baxmayaraq, çoxcəhətli uğurlarından, Prezident cənab İlham Əliyevin muxtar respublikanın bütün sahələrdəki tərəqqisini yüksək qiymətləndirməsindən danışılıb.

Sonda tədbir iştirakçıları Daimi Nümayəndəlikdə Naxçıvan Muxtar Respublikasının 98-ci ildönümünə həsr olunmuş kitab sərgisi ilə tanış olublar.

**AZƏRTAC**

## Muxtariyyətin 98-ci ildönümü məşhur "Tirana Times" qəzetində




*Albaniyanın məşhur "Tirana Times" qəzeti Naxçıvan Muxtar Respublikasının yaradılmasının 98-ci illiyi ilə bağlı məqalə yayımlayıb.*

"Naxçıvan: qürurlu Azərbaycan diyarı, qədim sivilizasiyaların unikal məkanı" başlığı ilə paylaşılan yazıda Naxçıvanın muxtar statusunun Moskva (16 mart 1921) və Qars (13 oktyabr 1921) müqavilələri ilə müəyyən edildiyi göstərilir. Həmçinin məqalədə ötən il Qars müqaviləsinin 100 illiyinin qeyd olunması və bununla bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2021-ci il fevralın 8-də Qars müqaviləsinin 100 illiyinin qeyd edilməsi haqqında Sərəncam imzalaması da vurğulanır. Diqqətə çatdırılır ki, adıçəkilən müqavilələrdən sonra 1924-cü il fevralın 9-da Naxçıvan rəsmi olaraq muxtar respublikaya çevrildi.

Məqalədə qeyd olunur ki, Azərbaycanın müstəqilliyinə gedən yol 1990-cı illərin əvvəllərində Naxçıvandan başlayıb. Naxçıvan Muxtar Respublikası o ağır günlərdən qurtuluşa görə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevə borcludur. 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbədənkənar sessiyasında dahi şəxsiyyət Heydər Əliyev Ali Məclisin Sədri vəzifəsini öz üzərinə götürdü. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanın milli dövlət rəmzləri ilk dəfə Naxçıvanda qəbul edilib, muxtar respublikanın adından "sovet sosialist" ifadəsi çıxarılıb. Bundan başqa, Azərbaycan hələ SSRİ-nin tərkibində olarkən sovet qoşunları bölgədən çıxarılıb, sərhəd məntəqələrində Azərbaycanın üçrəngli bayrağı qaldırılıb.





Qədim tarixi, zəngin mədəniyyəti və çoxəsrlik milli irsi ilə Naxçıvan bəşər sivilizasiyasının beşiklərindən biri, Şərqin məşhur ticarət, incəsənət, elm və mədəniyyət mərkəzidir. Məşhur Gəmiqaya abidələri və ərazidəki digər abidələr Naxçıvanın yaşının 5 min ilə yaxın olduğunu bir daha sübut edir.

Məqalədə Naxçıvanın turizm potensialına da diqqət yönəldilib. Qeyd olunub ki, Naxçıvanın turizm potensialı olduqca yüksəkdir. Bura il boyu bir çox yerli və beynəlxalq səyahətçilərə mədəni irs, tarix, təbiət, kurort – sağlamlıq, dağçılıq kimi turizm növlərində xidmətlər təklif edir.



## Naxçıvanda iqtisadi artım növbəti illərdə sıçrayışlı olacaq

*Naxçıvan iqtisadiyyatı Azərbaycan iqtisadiyyatının tərkib hissəsi olsa da, özəl xüsusiyyətləri və inkişaf cəhətləri ilə həmişə seçilib. Ölkə iqtisadiyyatının keçən ili necə başa vurduğu bəllidir. İqtisadiyyatımız nəinki 2020-ci il pandemiyasının vurduğu zərərdən çıxdı, hətta artıq iqtisadi artım nümayiş etdirərək 4,3 faizlik iqtisadi tənəzzüllə qarşı, 5,6 faiz rəqəm nümayiş etdirdi.*

Bütün bunlar haqqında yazmışam.

Ölkəmizin ümumi iqtisadi mənzərəsi fonunda həmişə ayrıca diqqət yetirdiyim Naxçıvan Muxtar Respublikasında isə vəziyyət pandemiya şəraitində necə idisə, elə də davam edib. Yəni iqtisadiyyat əvvəlki tempdə yüksəlişini davam etdirməkdədir.

Xatırladım ki, keçən il yazdığım şərhdə Naxçıvanın pandemiya yağışından islanmadan çıxdığını qeyd etmişdim. Ölkəmizin adıçəkilən bölgəsi 2020-ci ili, hansı ki, ümumən, iqtisadiyyatımız pandemiyanın təsiri nəticəsində 4,3 faiz tənəzzülə başa vurmuşdu, 1,1 faiz artımla yekunlaşdırmışdı.

Bu, möcüzə idi.

Təkrar edirəm: 2020-ci ilin statistikasına əsasən ölkəmizin sözügedən bölgəsində ÜDM istehsalı 2 milyard 907 milyon 810 min 500 manat təşkil etməklə 1,1 faiz artmışdı.

Ona görə də Prezident cənab İlham Əliyev keçən il mayın 10-da Naxçıvana səfəri zamanı Azərbaycan Televiziyasına müsahibəsində qeyd etdi ki, bölgə sürətlə inkişaf edir və burada bütün sahələr üzrə işlər müsbət istiqamətdə gedir. ***"Sənaye potensialı inkişaf edir, artır. Naxçıvan Muxtar Respublikası son 20 il ərzində iqtisadi artımın templərinə görə rekordsmendir. Ümumi daxili məhsul 10 dəfədən çox artıb"***, – deyə, dövlət başçısı bildirmişdi.

Sözügedən tendensiya keçən il də qorunub saxlanıb və muxtar respublikada sosial və iqtisadi cəhətdən inkişaf davam edib. Belə ki, 2021-ci ildə ÜDM istehsalı 3 milyard 16 milyon 315 min manat təşkil etməklə bir il əvvəlki göstəricidən 2,4 faiz çox olub.

Ümumiyyətlə, qeyd olunan bölgədə 2021-ci ildə sənaye məhsulu 2020-ci illə müqayisədə 1,7 faiz, əsas kapitala yönəldilən vəsaitlər 2 faiz, kənd təsərrüfatı məhsulu 5,3 faiz, nəqliyyat sektorunda yük daşınması 0,9 faiz, informasiya və rabitə xidmətləri 6,9 faiz, pərakəndə əmtəə dövriyyəsi 2,1 faiz, əhaliyə göstərilən ödənişli xidmətlər 1,8 faiz artıb.

Bütün bu rəqəmlər nəyi göstərir? Aşağıda qeyd edim:

Naxçıvandakı iqtisadi artım dayanıqlı sütunlara söykənir. Hansı ki, bu olduqca mühüm şərtdir. O baxımdan ki, mövcud iqtisadi durum belədə çox nadir hallarda kəskin şəkildə dəyişir. Naxçıvanda əldə olunan 2,4 faizlik artımın da, ümumən, ölkə üzrə 5,6 faiz analoji göstəricidən fərqi də məhz bundan ibarətdir.

Demək istədiyim budur ki, xammal ixracına söykənməyən iqtisadi artım heç bir zaman sıçrayışlı şəkildə qalxıb-düşmür və özünü həmişə ardıcıl, yavaş templə büruzə verir.

Naxçıvanda keçən il "İxrac ili" elan olunmuşdu. Bu, təsadüfi deyildi və çox mühüm strateji məqsəd daşıyırdı. Təkrar edirəm, Naxçıvanda nə neft var, nə qaz...

Ancaq Naxçıvan iqtisadiyyatı birmənalı olaraq ixrac üzərində qurulub.

Burada çoxlu çeşiddə ixrac qabiliyyətli məhsullar istehsal edilir ki, sözügedən bölgədə müxtəlif tip yerli istehsal sahələri, emal müəssisələrinin yaranması zamanı bunların, əsas etibarilə, daxili sərvətlər və xammal hesabına fəaliyyət göstərərək məhz ixrac qabiliyyətli məhsullar istehsal etməsinə üstünlük verilir.

Məqsəd isə əvvəl yerli istehsalı sırf olaraq ixrac imkanlarına sahib etməklə genişləndirərək büdcəni daha çox möhkəm və dayanıqlı gəlir mənbələriylə təmin etmək idisə, sonradan bu, ardıcıl iqtisadi inkişaf istəyində başlıca prioritetə çevrildi.

Naxçıvanın uğuru da məhz bundan ibarətdir.

Ümumiyyətlə, Naxçıvanda iqtisadiyyat, demək olar, bütün sektorlar üzrə ixraca köklənmiş durumdadır. Əvvəlki şərhlərimdə də qeyd etdiyim kimi, götürək, adi kənd təsərrüfatını...

Muxtar respublikada əhalinin ərzaq məhsullarıyla etibarlı təminatında mühüm yer tutan kənd təsərrüfatının inkişafı üzrə ardıcıl tədbirlər həyata keçirilir. 2021-ci ildə əvvəlki ilə nisbətən 5,3 faiz çox, yəni 573 milyon 380 min manatlıq kənd təsərrüfatı məhsulu istehsal edilib ki, ölkə üzrə bu rəqəm 3,4 faizdir.

Sözüm bunda deyil. Bu ondan irəli gəlir ki, bölgədə əhalinin ərzaq məhsulları ilə etibarlı təminatında mühüm yer tutan kənd təsərrüfatının inkişafı üzrə tədbirlər də ixrac hədəfi və prinsipləri üzərində qurulub.

Buna Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2021-ci il 29 mart tarixli Sərəncamı ilə təsdiq edilmiş "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və ixracının stimullaşdırılmasına dair Dövlət Proqramı"nı misal göstərmək olar.

Belə ki, kənd təsərrüfatının dayanıqlı inkişafını təmin etmək və bu sahədə yeni emal müəssisələrinin yaradılması prosesi istehsal olunan məhsulların sırf şəkildə ixrac potensialına malik olması məqsədi daşıyır ki, hər şey buna tabe edilib.

Və yaxud Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2021-ci il 12 mart tarixdə imzaladığı digər Sərəncamı götürək. Söhbət "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq olunmasına dair sənəddən gedir.

Hansı ki adi meyvə-tərəvəz məhsullarına olan tələbin yerli istehsal hesabına ödənilməsi istəyi, ixracyönümlü və ekoloji təmiz meyvə-tərəvəz məhsulları istehsalı sahələrinin yaradılması məqsədiylə eyni tandemdə götürülüb.

Bütün bunlar da onu göstərir ki, hər bir iqtisadi fəaliyyət sahələri üzrə Dövlət proqramları ixracyönümlü hədəf üzərində qurulub və hər şey məhz bunun üzərində təsbit və təsdiq olunur.

Odur ki, Naxçıvanın real iqtisadi durumu, seçdiyi kurs da olduqca xoş təəssürat doğurur. Söhbət yaxşı düşünülmüş siyasətdən gedir. Şərhlərimdə də yazdığım kimi fasiləsiz iqtisadi artım üçün ixracın əsas hədəf təşkil etməsi aksiom sayılır. Əks halda, stabil dinamik inkişaf qeyri-mümkün hesab edilir.

Burada, Naxçıvanda keçən il ərzində hər bir iqtisadi sektor üzrə əldə olunan uğurlara və rəqəmlərə toxunmaq – üzərində dayanmaq istəmirəm. Təkcə onu qeyd edim ki, Naxçıvan getdikcə daha çox sənayeləşir. Və bu da muxtar respublika rəhbərinin həyata keçirdiyi iqtisadi siyasətin əsas hədəfini təşkil edir.

2021-ci ildə sözügedən bölgədə 1 milyard 69 milyon 655 min 700 manat dəyərində sənaye məhsulu istehsal olunub ki, bu da əvvəlki ilin göstəricisini 1,7 faiz üstələyib.

Yeri gəlmişkən, növbəti ildə yerli hökumət "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasını başa çatdıracaq. Sözügedən sənəd bazar iqtisadiyyatı mexanizmi əsasında sahibkarlıq fəaliyyətini genişləndirməyi, yerli və xarici investisiyaları, müasir texnologiyaları cəlb etməklə, qabaqcıl idarəetmə təcrübəsindən faydalanaraq, rəqabətqabiliyyətli məhsul istehsal edən müəssisələr yaratmağı nəzərdə tuturdu.

Növbəti ildən yeni beşillik proqramın icrasına başlanacaq ki, bu dəfə bütün vəzifələr daha yeni və olduqca geniş perspektivlər fonunda nəzərdə tutularaq icra edilməli olacaq. Belə ki, ümumiyyətlə, ölkəmizin bu dilbər guşəsinin bundan sonrakı inkişafı özünü həm də Şərqi Zəngəzur, həmçinin Qarabağ iqtisadi rayonları ilə qarşılıqlı əlaqə və dəstək əsasında büruzə verəcək.

Yəni bölgədəki bütün iqtisadi, nəqliyyat və sair əlaqələr bərpa edildikdən – Naxçıvan Muxtar Respublikasıyla qərb rayonlarımız arasında vətəndaşların, nəqliyyat vasitələri və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkəti təmin edildikdən, başqa sözlə desəm, Zəngəzur dəhlizi işə düşdükdən sonra Naxçıvanın potensialı tam olaraq hərəkətə gələcək ki, bu da bölgədə iqtisadi artımın özünü hər il daha artıq və sıçrayışlı şəkildə büruzə verməsi ilə nəticələnəcək.

**Pərviz HEYDƏROV**



***Əlincəçay vadisi öz tarixi, məskunlaşması və zəngin təbiəti ilə bu diyarın ən qiymətli bölgələrindəndir. Vaxtilə Əlincə nahiyəsi də elə, təxminən, bu ərazini əhatə edib və Naxçıvan sancağının 14 bölgəsindən biri olub. Ümumiyyətlə, Əlincəçay vadisi Culfa rayonunun gözəl, füsunkar guşələrindən hesab edilir. Bu ərazi təkcə özünün məğrurluq simvolu olan Əlincə qalası, Əlincə çayı ilə öyünmür. Vadidə yerləşən Haçadağ bu yerlərin yenilməzlik, ucalıq rəmzinə çevrilib. Romantik bir əfsanədə bu dağ müzəffər sərkərdənin başından düşən daş-qaşla bəzədilmiş dəbilqəyə bənzədilib. Deyilənə görə, Nuh Peyğəmbərin nəhəng gəmisinin zərbəsindən ikiyə bölünən dağ da elə Haçadağ olub. Əlincəçay vadisi həm də geniş, bərəkətli düzənlikləri, yaşıl bağları, sərin bulaqları, neçə-neçə dərdin dərmanı olan mineral suları, tarixi abidələri və qədim yaşayış yerləri ilə də məşhurdur.***

*Jurnalistin qeydləri*

# Əlincəçay vadisində bir gün

Elə buna görə də istirahət günlərinin birində vaxtımızı səmərəli keçirmək üçün bir qrup jurnalist yoldaşımla muxtar respublikanın zəngin təbiətini özündə ehtiva edən, tarixi abidələri və yaşayış məskənləri ilə məşhur Culfa rayonuna üz tutduq. Ərazinin zəngin təbiəti, Zəngəzur Milli Parkının ərazisinin böyük bir hissəsinin buranın payına düşməsi, eyni zamanda Haçadağ kimi maraqlı bir təbiət abidəsinin bu rayonda yerləşməsi buranı təbiət turizminin də maraqlı ünvanlarından birinə çevirir.

Mərkəzdən ucqarlara doğru sərbəst hərəkətin ilk amili yol infrastrukturunun müasir tələblərə cavab verməsidir. Bu sahəyə kifayət qədər diqqət göstərildiyindən istiqamətimizin son dayanacağına – Ləkətağa qədər qara örtüklü yol bizi müşayiət edərək mənzilbaşına tez və rahat şəkildə çatmağa imkan verir. Səfər yolunun uzun olmasına – Naxçıvan şəhərindən, təxminən, 55 kilometrlik bir məsafədə yerləşməsinə və mövsümün bu qarlı dövrünə baxmayaraq, bütün yollar gündəlik olaraq tamamilə qardan təmizlənir, avtomobillər üçün təhlükəsiz hərəkət şəraiti yaradılır. Muxtar respublikanın hər tərəfində olduğu kimi, burada da təmiz və rahat yol bu istiqamətə üz tutmaq üçün ilkin səbəblərdən biridir.

Əlincəçay vadisini üzük qaşı kimi dövrəyə alan Zəngəzur silsiləsi bütün gözəlliyi ilə bu hissədəki kəndlərin hüsnünə başqa bir əsrarəngiz mənzərə bəxş edir. Silsilənin bir-birini əvəz edən zirvələri çiyin-çiyinə duraraq vadinin ətrafında təbii bir sədd yaradır. Bu dağlar təbii meşə örtüyünə sahib olmasa da, nadir bitki və heyvanat aləminə ev sahibliyi edir. Qış mövsümü isə buranı ağ örpəyə bürüyərək yan-yana düzülmüş kəndləri daha bir turizmin – qış turizminin də maraqlı ünvanına çevirir.

Ağ örpəyə bürünmüş düzlər və dağlar arasında qıvrılıb-açılan hamar yolla yaşayış məntəqələrini geridə qoyub irəlilədikcə möhtəşəm mənzərələr, təbiət tabloları bir-birini əvəz edir. Ağ örtüyü ilə təbiəti duvaqlı gəlinə bənzədən, yeri, göyü, təbiəti donduran qış mövsümü bu torpağa başqa bir gözəllik, əsrarəngizlik bəxş edib. Günəşli mavi səmanın bəyaza bürünmüş təbiətlə harmoniyası, göz işlədikcə uzanıb gedən düzənlik və düzənliyin sərhədindəki dağlar insanı mistik bir mənzərənin ağuşuna salır. Zərif duman örtüyünə bürünmüş dağlar üfüqdəki düzənliklə qovuşaraq vahid bir mənzərə yaradır. Yaranmış mənzərə, mavi üfüqün qübbəsi altında sanki yerlə səmanın birləşib vahid bir tandem yaratması ana təbiətin rəssam fırçasından çıxmış möcüzələrindən biridir.

İlin müxtəlif dövrlərində, xüsusilə yağan qardan zövq almaq üçün qarlı qış mövsümündə bu istiqamətə üz tutan qonaqlar üçün digər bir məsələ isə qonaqlama üçün kirayə evlərin – kotteclərin olmasıdır. Muxtar respublikanın müxtəlif bölgələrində turizmin inkişafı üçün əlverişli təbii mühitin mövcudluğu, yerli sakinlərin yaradılan şəraitdən səmərəli istifadə edərək turizmin inkişafına öz töhfələrini verməsini reallaşdırır. Culfa rayonunun bu istiqamətində yaşayan insanlar da tarix və təbiətin onlara bəxş etdiyi şəraitdən – Əlincəçay, hündür dağlar, ekoloji-təmiz məhsul və tarixi abidələrdən bəhrələnərək digər insanların da buraları görməsi üçün səy göstərirlər. Sakinlərin öz torpaqlarında inşa edərək hər cür şərait yaratdıqları kiçik evlər buraya üz tutan insanların ilin istənilən mövsümündə rahat şəkildə yaşaya bilməsinə imkan verir. Onu da deyim ki, buradakı evləri rezerv etmək üçün kifayət qədər əvvəlcədən danışıb razılaşmaq lazımdır. Çünki qardan zövq almaq və qış istirahətini daha rəngarəng, eyni zamanda yayın istisində şəhərdən kənarda zaman keçirmək istəyənlər və ya yazın ətirli-çiçəkli dövründə təbiətdən zövq almaq istəyənlər bura tez-tez üz tuturlar.



Elə biz də Ləkətağ kəndindəki əvvəlcədən əlaqə saxlayıb razılaşdığımız bu evlərdən birində yerləşirik. Çayın kənarında, dağlarla üz-üzə yerləşmiş evdə qonaqların rahatlığı üçün hər cür şərait yaradılıb. Ev hündürdə yerləşdiyindən eyvandan ətrafa kifayət qədər maraqlı və gözəl bir mənzərə açılır. Qarşıdakı dağların bəyaza bürünmüş möhtəşəm mənzərəsi nəyə desən dəyər. Aşağıda – çayın sahilində isə isti mövsümlərdə istifadəsi daha əlverişli olan eyvan qurulub.



Sərt təbiətin, zəngin və qədim tarixin içində müasirliyi və rahatlığı yaşamaq burada o qədər də çətin olmayacaq. Təbii qaz və elektrik enerjisi ilə təmin edilib, rahat şərait yaradılmış evlər və mobil şəbəkələrin – internetin mövcudluğu sizi dünyanın müasirliyindən, sürətli informasiya axınından qoparmadan mənalı istirahətinizi etməyə imkan verəcək. Ancaq məsləhətdir ki, elə mobil telefonlarınızı söndürüb, internetdən imtina edib təbiət qoynunda, həyatın səs-küyündən uzaqda zövq alaraq istirahətinizi keçirəsiniz.

Hər fəsil təbiətə bir don geyindirir. Yaz, yay al-əlvan rəngli, payız sarı-qızılı don, qış isə yalnız bir rəngdən ibarətdir; birrəngli paltar geyindirə bilir təbiətə. Bilmirəm niyə, amma qışın donu daha gözəl olur. Əlincəçayın kənarındakı evlərin pəncərələrindən yağan həzin qarın müşayiətilə çayın aram səsini dinləmək, havanın soyuqluğuna qarşı ətrafdakı dağlardan toplanmış min bir dərdin dərmanı olan otlardan dəmlənmiş isti samovar çayı sizə xüsusi zövq verəcək. İstəsəniz, qonaqpərvər ev sahibləri sizi təbii kənd məhsullarına da qonaq edəcək.

Axşam saatlarında evlərin pəncərələrindən düşən işıq ağ qarın üstündə özünəməxsus, ılıq bir mənzərə yaradır. Hər yer dümağ, parıldayan ipəyə oxşayır. Göydən isə sanki ələkdən un ələnir. Mənə elə gəlir ki, qış paklıq rəmzidir. Çünki örpəyi ağappaqdır. Qış fəsli insanı xatırladır desəm, yəqin ki, yanılmaram: soyuğu, şaxtası, gözəlliyi, cəlbediciliyi və müşahidə edə bilmədiyimiz daha neçə-neçə xüsusiyyətləri ilə...

Səhər saatlarında qarşıdakı Zəngəzur dağlarının arxasından doğan qış Günəşi, ətrafda uçuşub özünə yem axtaran quşların həyəcanlı, şən və bəzən qayğılı nəğmələri sizə soyuq qışın dizə qədər qalxan qarı ilə birlikdə təbiətin qoynunda maraqlı gün yaşamağa imkan verəcək. Çay sahilindəki sıx və hündür ağaclıq dağlara doğru azalsa da, donmuş meşənin quşlar tərəfindən pozulan lal sükutlu görkəmi sizi sehrli bir qış nağılının içində hiss etdirib, mistik bir aləmə qonaq edəcək.

Belə bir vaxtda qarın üstü ilə tənha addımlayırsan. Ayağın altında qar yavaş-yavaş səs salır. Bu adi səs, diqqət etsəniz sanki sizə nəsə pıçıldayır. Bəlkə də, inləyir, deyir məni əzməyin. Bir də nağıl söyləyir bizə – qış nağılı. Qış nağılı yol uzandıqca davam edir. Sən isə mənzilbaşına çatmısan... Deyir, qorxmayın soyuğumdan, şaxtamdan, onsuz da qarşıdan bahar gəlir.

Hər tərəfin ağ don geyinməsi, evlərin damından asılan buz parçaları, onlardan damla-damla aramla əriyib yerə düşən mirvari damlalar, çılpaq ağacların üzərində özünə yer edən qırov təbiətə elə gözəl bir görüntü verir ki, adamın lap rəssam olub bu mənzərəni çəkməyi, şair olub misraların yaddaşına köçürməyi gəlir. Ya da elə mənim kimi sətirlərə köçürüb vəsf eləməyi... Amma nə etməli ki, hamının belə istedadı olmur. Tamaşa etmək isə heç bir bacarıq istəmir. Əlimizdən nə gələr ki...

Yolunu Əlincəçay vadisindən salanları bu istiqamətdə bir-birindən qədim və dəyərli tarixi abidələr də gözləyir. Hürufiliyin banisi Fəzlullah Nəiminin Xanəgah kəndindəki məqbərəsi, Əmir Teymura qarşı əyilməzliyin və mübarizliyin simvolu Əlincəqala, tarixi Qazançı və Ərəfsə körpüləri, Ərəfsə, Boyəhməd, Kırna yaşayış yerləri, Naxçıvanın simvollarından biri olan Haçadağ Əlincəçay vadisinin daş salnaməsi olmaqla yanaşı, həm də bu diyarın qədimliyindən, zənginliyindən söz açmaq gücündədir.

Sufi alim və mütəfəkkir, hürufiliyin banisi Şeyx Nəiminin məzarını – qəbirüstü türbəsini ziyarət edərkən sanki orta əsrlərin sehrli bir aləminə qovuşursan. Türbənin tarixə şahidlik edən divarları, şeyxin məzarı və bəlkə də, bu divarlar arasında dolaşan ruhu ilahi sevginin və tərənnümün, insana məhəbbətin və var olmağın fəlsəfəsini sizə pıçıldayacaq. Əsrləri dilə gətirən ətrafdakı dağlar isə tarixin ağır məngənəsində bu torpaqlarda Əmir Teymura qarşı direnişin, Vətən sevgisinin, qazanılmış qələbənin və buradakı insanların yaşadığı mübarizənin şahidləridir.

Yolüstü tarixi Qazançı və Ərəfsə körpülərini, qüdrətli Əlincəqalanı, Tarix-Mədəniyyət Muzeyini görmək, möhtəşəm Haçadağın müxtəlif rakurslardan panoramını seyr etmək sizdə maraqlı təəssürat yaradacaq. Haçadağ və Əlincəqalanın qoşa müşahidə edilən mənzərəsi, xüsusilə ağ örpəyə bürünmüş şəkildə daha mistik görünərək nağıl qəhrəmanlarına bənzəyən iki nəhəng sərkərdə kimi bu torpaqların müdafiəsində durmuş keşikçilər təəssüratı yaradır. XVI-XVII əsr tarixi abidələri olan Qazançı və Ərəfsə körpülərinə mütləq baş çəkin. Hər iki körpü ikinci həyat alan abidələrimizdən olmaqla tarixə göstərilən dəyərin əyani sübutlarındandır. Elə buna görə də bu bölgə tarixi turizmin də maraqlı ünvanlarından birinə çevrilib...

Geri qayıdanda jurnalist dostumun nəzərindən yayınmayan başqa bir amili müşahidə edirik. Şahbuz bölgəsində kənd turizminə yaranan marağın coğrafiyası artıq kifayət qədər genişlənib. Ordubadın bir sıra turistik kəndləri ilə yanaşı, Əlincəçay vadisi istiqamətində də mövcud turizm imkanları burada istirahət məqsədli ev tikintilərini daha da artırıb.

Muxtar respublikada görülən işlər, həyata keçirilən tədbirlər, turizmin inkişafına qayğı bu diyarın hər bir guşəsində mövcud olan turizm potensialının üzə çıxarılmasına və yeni nailiyyətlər qazanılmasına imkan verir. Xüsusilə müxtəlif bölgələrdə yaşayan sakinlərin bu istiqamətdə marağının artması qonaqların cəlb edilməsi üçün yaxşı şəraitin yaradılmasına, bölgələrin tanıdılması üçün müxtəlif üsullardan istifadə olunmasına, eyni zamanda sosial şəbəkələrdən təbliğat vasitəsi kimi məqsədyönlü yararlanmağa səbəb olub. Bu isə, öz növbəsində, sakinlərin istehsal etdikləri məhsulları rahat şəkildə satması, yaşadıqları yerin potensialından səmərəli istifadə etməsi, eyni zamanda ailə büdcəsinə əlavə dəstəyin formalaşmasına şərait yaradır. Bir sözlə, Əlincəçay vadisində keçirdiyimiz bir gün onu deməyə əsas verir ki, yaradılan şərait qədim diyarın turizm potensialının inkişafı üçün bundan sonra da geniş üfüqlər açacaq.

**Məmməd BABAYEV**

## “Naxçıvan təhsili: dünən və bu gün” I yaradıcılıq müsabiqəsinə yekun vurulub



*Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və Naxçıvan Gənc Müəllimlər Assosiasiyasının birgə təşkilatçılığı ilə keçirilən “Naxçıvan təhsili: dünən və bu gün” I yaradıcılıq müsabiqəsinin yekunu ilə bağlı tədbir keçirilib.*

Təhsil naziri Rəhman Məmmədov tədbirdə çıxış edərək bildirib ki, muxtar respublikada aparılan böyük quruculuq və abadlıq işləri, bütün sahələrdə, o cümlədən təhsil sahəsində əldə olunan inkişaf Naxçıvanın muxtariyyət tarixində yeni bir səhifə açıb.

Qeyd edilib ki, muxtar respublikada bütün sahələr kimi, təhsil də dövlət qayğısı ilə əhatə olunub, müasir təhsil modeli formalaşdırılıb. Məktəblərdə tədrisin müasirləşdirilməsi diqqətdə saxlanılıb, qabaqcıl tədris metodlarının, o cümlədən STEAM təlim metodunun tətbiqinə başlanılıb. Laboratoriyalar və fənn kabinələri şagirdlərin istifadəsinə verilib, kitabxana fondları dərslik və bədii ədəbiyyatla zənginləşdirilib. 2014-cü ildən interaktiv, 2015-ci ildən isə elm, ali və orta ixtisas təhsili müəssisələrinin elmi dərəcəli müəllimləri tərəfindən ümumtəhsil məktəblərində nümunəvi dərslər keçilməyə başlanılıb, görmə və eşitmə qabiliyyəti məhdud uşaqlar üçün distant audio və elektron kitabxana yaradılıb.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamları ilə müəllimlərin əməkhaqqının artırılması muxtar respublikada müəllim peşəsinə və əməyinə verilən yüksək qiymətin, müəllimlərin maddi rifahlarının yaxşılaşdırılmasına göstərilən dövlət qayğısının bariz nümunəsidir. Bu qayğının nəticəsidir ki, muxtar respublikada öz fəaliyyəti ilə seçilən 400-dən çox müəllim Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının “Əməkdar müəllimi” fəxri adlarına layiq görülüb, “Tərəqqi” medalı ilə təltif edilib.

Təhsil naziri gənc müəllimlər arasında keçirilən “Naxçıvan təhsili: dünən və bu gün” I yaradıcılıq müsabiqəsinin gənclərdə tədqiqatçılıq bacarıqlarının inkişaf etdirilməsi, fəaliyyət göstərdikləri təhsil müəssisələrinin dünən və bu gününə nəzər salmaları baxımından xüsusi əhəmiyyət kəsb etdiyini bildirib, müsabiqə qaliblərini təbrik edib.

Tədbirdə Naxçıvan Gənc Müəllimlər Assosiasiyasının sədri Gülxanım Orucova müsabiqənin nəticələri haqqında məlumat verib. Bildirilib ki, “Naxçıvan təhsili: dünən və bu gün” I yaradıcılıq müsabiqəsinə ümumtəhsil məktəblərinin gənc müəllimləri tərəfindən 87 məqalə və 13 film olmaqla, ümumilikdə, 100 iş təqdim edilib. Münsiflər heyətinin rəyinə əsasən məqalə kateqoriyası üzrə Nüsnüs kənd tam orta məktəbinin tarix müəllimi Aydan Hüseynlinin məqaləsi və Naxçıvan şəhər 3 nömrəli tam orta məktəbinin alman dili müəllimi Dilarə Əliyevanın hazırladığı “Dünəndən bu günə” filmi I yerə, Şərur rayon Aşağı Yaycı kənd tam orta məktəbinin fizika müəllimi Zinyət Əhmədovanın məqaləsi II yerə, Kəngərli rayon Böyükdüz kənd tam orta məktəbinin ibtidai sinif müəllimi Aygül Məmmədovanın məqaləsi isə III yerə layiq görülüb.

Sonra müsabiqə qaliblərinin məqalələri dinlənilib, filmə baxış olub, qaliblər təhsil naziri tərəfindən diplom və hədiyyələrlə mükafatlandırılıblar.

Sonda “Kanal 35” televiziyası tərəfindən hazırlanmış “Naxçıvan təhsilinin inkişaf yolu-26 il” filmi tədbir iştirakçıları tərəfindən izlənilib.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

*Naxçıvan bölgəsində təqvim adətləri ilə bağlı keçirilən bayramlardan biri də Xıdır və yaxud Xıdır Nəbi bayramıdır. Bu bayram "qışın oğlan çağında", Kiçik çillənin onuncu günü qeyd edilir. Kiçik çillə yanvar ayının 31-dən fevral ayının 19-na qədər olan dövrü əhatə etdiyindən Xıdır bayramı Kiçik çillənin yarı olduğu gün keçirilir. Naxçıvan Muxtar Respublikasının bəzi şəhər və kəndlərində bu bayramın fərqli günlərdə keçirildiyinə də şahid oluruq. Məsələn, Şərur rayonunun Aşağı və Yuxarı Yaycı kəndlərində Xıdır bayramını fevralın 5-i, qışın yarı olduğu gün keçirirlər. Çalxanqala, Təzəkənd, Tivi kimi kəndlərdə isə Xıdır Nəbi bayramı fevralın 14-ü Xızır (ə.s.) anadan olduğu gün kimi qeyd edilir. Naxçıvan şəhərində isə bayramı Kiçik çillənin ikinci cümə axşamında keçirirlər. Bütün bunlar barədə həmsöhbətimiz AMEA Naxçıvan Bölməsinin tarix üzrə fəlsəfə doktoru, dosent Asəf Orucovdur.*

*Xalq təqvimi*

## Xıdır Nəbi, Xıdır İlyas, Açdı çiçək, oldu yaz!



Həmsöhbətim deyir ki, Xıdır Nəbi bayramı bəzən həftənin dördüncü gününə təsadüf edildiyindən bunu dinlə əlaqələndirirlər. Ancaq onu deyə bilərik ki, bu tamamilə yanlış bir fikirdir. Maraqlı cəhət bundan ibarətdir ki, bayram nəyə görə məhz fevralda, qışın ən sərt vaxtında keçirilir? Çünki qışın ən çətin dövründə insanların qış üçün tədarük gördükləri ərzaq, yem, yanacaq ehtiyatının azaldığı vaxt Xızır Peyğəmbərin çağırılması, onun yardımına böyük ehtiyacla bağlıdır. Tədqiqat materiallarına əsaslanaraq demək olar ki, bayram çətinlikdə insanların dadına, köməyinə çatan istilik hamisi Xızırla bağlı olub, onun şərəfinə keçirilir. Bu İslamdan öncə formalaşmış əski türk inancıdır.

Naxçıvan bölgəsində bayrama bir neçə gün qalmış onu qarşılamaq üçün hazırlıq işləri görülür, evlər səliqə-sahmana salınır, həyət-baca təmizlənir. İnama görə, səliqəsiz evə Xızır (ə.s.) gəlməz. Xızır (ə.s) gəlmədiyi ev, ailə isə dərd-bəladan qurtulmaz.

Bayramda qovurmaq üçün buğda, küncüd təmizlənir, bir çox kəndlərdə (Kükü, Teyvaz, Qıvraq, Şahtaxtı) Günəşi çağırmaq anlamında, Günəşin, yazın rənginə uyğun olaraq yumurtalar qırmızı rəngə boyanılır. Qeyd edək ki, yumurta boyanması başqa kəndlərdə yoxdur. Ümumiyyətlə, bu adətə Novruz bayramında əməl edilir. Bəzi kəndlərdə isə Günəşin, istiliyin rəmzi olaraq çömçə bəzəyirlər. Bildirmək istərdik ki, Naxçıvan bölgəsində Günəşi çağırmaq anlamında Qodu mərasimi (Novruz bayramı ərəfəsində) keçirilir.

Qovrulmuş buğdadan (qovurğadan) qovut hazırlanır, yəni qovurğa kirkirədə (dəstərdə) çəkilir və yaxud həvəngdəstədə döyülür. Qovutu quru yemək çətin olduğundan ona bir az şərbət və ya doşab əlavə edib ovurlar.

Qovurğa ilə yanaşı, bayram günü badam, noxud, günəbaxan tumu da qovrulur, hazırlanan qarışığa iydə, kişmiş, mövüc və başqa çərəzlər də qatılır. Plov (aş) süzülür, xəşil bişirilir, müxtəlif şirniyyat növləri hazırlanır və süfrəyə düzülür. Evdə olan adamların sayına görə plovun yanına şam qoyulur. Çox təəssüf ki, hazırda bu adətlərin bir qismi icra olunmur. Maraqlıdır ki, Xıdırda plov hazırlamaq, şam yandırmaq adəti Naxçıvan Muxtar Respublikasının hər tərəfində qeydə alınmamışdır.

Asəf müəllim onu da bildirir ki, bu bayram hamıdan çox uşaqların sevincinə səbəb olur. Hava qaralan kimi, onlar qapılara gedib, torba, papaq atır, Xıdırın payını yığırlar. Pay gözləyənlər aşağıdakı misraları söyləyirlər:

*Xıdıra xıdır deyərlər,*
*Xıdırın payın verərlər.*

Və yaxud:

*Çatma, çatma çatmaya,*
*Çatma yerə batmaya.*
*Xıdırın payın kəsənin,*
*Ayağı yerə çatmaya.*

Torbalara müxtəlif növ şirniyyat, çərəzlər qoyub uşaqları yola salırlar. Onu da qeyd edək ki, Culfa bölgəsində (Ləkətağ, Saltax kəndləri) mal-qaranın yemi, insanların özlərinin ərzaqları qurtardıqda Xıdır Nəbi də evin bacasından ip ipə bağlanmış corab sallayar, mal-qara üçün yem, özləri üçün ərzaq istəyərdilər. Toyuğu, cücəsi olmayanlar, ipin ucuna lələk bağlayıb, toyuq-cücəsi çox olanların evinin bacasından içəri sallayardılar. Evin yiyəsi də həmin adamın toyuq istədiyini bilib, torbaya toyuq qoyub geri qaytarardı. Demək olar ki, Xıdır Nəbi bayramı çətinliklərdən qurtarmaq, darda qalanlara kömək, bərabərlik anlamında keçirilən əsl milli bayramdır.

Toplanılan etnoqrafik materiallardan ətraflı bəhs edən həmsöhbətim diqqətimizə çatdırır ki, qovut çəkməklə yanaşı, bəzi kəndlərdə bayram gecəsi xəşil bişirib, yük yığılmış taxtın altına qoyurlar. Çəkilmiş qovutdan da taxtın altına qoymaq adəti var. İnanca görə, Xızır Peyğəmbər gecə gəlib xəşilə barmağın, qovuta isə əlini basacaqdır. Xızırın (ə.s) atının ayaq izinin qovuta düşdüyünə inanılır. Səhər xəşilin, qovutun üzərində müəyyən iz olsa, bunu Xızırın əlinin, barmağının və ya atının ayaq izi hesab edirlər. İnama görə, belə qovut şəfaverici xüsusiyyətlərə malik olur. Deyirlər ki, bu il həmin evə uğur gələcək, bolluq, bərəkət olacaq, ev yiyələrinin arzuları həyata keçəcəkdir.



Digər bir inama görə, bayram günü xəşil bişirilib qalağın üstünə qoyulur. Əgər qəcələ (dolaşa) gəlib xəşildən bir dimdik götürüb uçub getsə, həmin evin qızı bu il özgə kəndə, əksinə, yerə sələrsa, öz kəndinə ərə gedəcəkdir. Başqa bir inamda da deyilir ki, xəmirin içinə muncuq qoyulub kökə bişirilir, həmin muncuq kimin payının içindən çıxarsa, demək, həmin insan tezliklə istəyinə çatacaqdır. Sarıqamış çərkəzlərində də Hıdır-Ellezdə duzlu çörək yapılır. Bu çörəyin bir hissəsini subay qızlar yeyər, qalan hissəsini isə yastığının altına qoyub yatar. İnanca görə, qız ailə quracağı oğlanı yuxusunda görər. İkinci günü çörəyin qalan hissəsini qarğaların yeyə biləcəyi yerə qoyurlar. Sonra qarğanın çörəyi götürüb hara gedəcəyinə baxıb qızın da o tərəfə gedəcəyinə inanırlar. Ordubadın Kələki kəndində isə Xıdır Nəbi günü Xızırın şərəfinə ehsan verilərdi.

Etnoqraf alimlə söhbətimiz zamanı onu da əlavə edir ki, təsərrüfat, bolluq, bərəkətlə bağlı olaraq Xıdır Nəbi bayramında aşağıdakı mərasimlər də icra edilərdi: Ev yiyəsi yumurtlamayan toyuqları kisəyə yığıb deyərdi ki, aparıram kəsməyə. Yaşlı adam da onun qabağına çıxıb qoymazdı ki, kəsmə, bu il yumurtlayacaqlar. Toyuqlara Xıdır Nəbi qovurğası verməadəti də vardır. Bir sıra kəndlərdə (Qıvraq, Kükü, Yuxarı Qışlaq) Xıdır bayramı günü xına yaxmaq adəti mövcuddur. Qızlar, gəlinlər əl barmaqlarına, oğlanlar isə çeçələ barmaqlarına xına yaxardılar. Hazırlanmış xınadan bir qab pay götürüb (Xıdır payı) bayıra qoyardılar ki, Xızır gəlib əlinə yaxsın. Mənbələrə əsaslanaraq demək olar ki, xına çox qədim dövrlərdə Azərbaycan türklərində və digər türk xalqlarında şadlıq, sıxıntıdan, yasdan çıxmaq rəmzidir. Bölgəmizdə də həmin gün xınanın qoyulması sərt qışın, ağır günlərin artıq arxada qaldığı, qarşıdan xoş günlərin, istiliyin gəldiyini qeyd etmək anlamına gəlir.

Həmsöhbətim onu da bildirir ki, Xıdır Nəbi günü oğlan evindən nişanlı qızlara, ata evindən təzə gəlinlərə Xıdır payı aparmaq adəti geniş yayılmışdır. Qovurğa, küncüd, qovut, noxud, mərcimək və sair çərəzlərdən xonça tuturlar. Onu da qeyd edək ki, Cəhri, Payız, Gülşənabad kəndlərində bunun əksinə olaraq nişanlı oğlanlara qız evindən pay aparırlar. Payda bəyə isti köynək, yun corab da qoyulardı. Bir məsələdə vurğulanmalıdır ki, günümüzdə də nişanlı qızlara Xıdır payı aparmaq adəti mövcuddur.

Xıdır Nəbi bayramında doğulan oğlan uşaqlarına Xıdır, Nəbi, İlyas və digər adların qoyulması adəti də geniş yayılmışdır. Xıdır gecələrində axşamdan səhərə qədər külək əsərsə, deyərlər ki, bu Xıdır Nəbidir, atın çapa-çapa bərəkət paylayır. Əsən külək isə onun boz atının yelidir.

*Mən Xıdırın nəyiyəm,*
*Boz atının yeliyəm.*

Etnoqrafiyamızın tədqiqatçısı söhbətin bu məqamında onu da diqqətə çatdırır ki, Xıdırın boz at minməsinə "Kitabi-Dədə Qorqud" dastanında da rast gəlirik. İnsanlar daim çıxılmaz vəziyyətdə qalanda boz atlı Xızırı arzulamış, o isə öz köməyini əsirgəməmiş, onlara yol göstərmişdir. Əski türk inanc sistemində Xızır yolda qalanların yardımına gedən boz atlı yol əyəsi təsəvvür edilmişdir.

Xalq arasında olan inama görə, Xıdır Nəbi günü havaların xoş keçməsi, ilin bol, bərəkətli olmasına işarədir.

Xızır həm də istilik və odla bağlıdır. Az öncə də deyildiyi kimi, süfrəyə gətirilən aşın kənarlarına şam qoyurlar. Bu şamların qoyulması və yaxud:

*Xıdıra Xıdır deyərlər,*
*Xıdıra çıraq qoyarlar.*

deyimi də odla, istiliklə, istiliyi çağırmaqla əlaqəlidir. Bu, eyni zamanda qışın şaxtasının, soyuğunun odla, isti ilə gedəcəyinə, torpağın isinib oyanacağına işarədir. Od, istilik yazın gəlməsinin əlamətləridir. Həm də bu dövr qışın ən soyuq günlərindən biridir. Xalq arasında "Xıdır girdi, qış girdi" kimi deyim də mövcuddur.

*Milli dəyərlərin daim qorunub saxlanıldığı qədim yurdumuzda hər bayram kimi Xıdır Nəbi də öz gəlişi ilə evlərə bolluq, bərəkət gətirir. İnsanlar bu əziz gündə sacda qovurduqları qovurğadan, qovutdan qonum-qonşuya, təzə gəlinlərə, nişanlı qızlara pay tutur. Elimizin bu gözəl adətləri nəsildən-nəslə ötürülərək yaşadılır.*

**Ramiyyə ƏKBƏROVA**

## Bölmələrin döyüşə hazır olmasının qəfil yoxlanılması aparılır



"Birləşmə və hissələrdə döyüşə hazırolmanın qəfil yoxlanılması" planına əsasən Əlahiddə Ümumqoşun Ordunun Mərkəzi Qərargahı tərəfindən bölmələr yoxlanılır. Növbəti dəfə tank bölmələrindən biri qəfil yoxlanılıb.

Yoxlanılan tank bölməsi "Həyəcan" siqnalı ilə qaldırılaraq təyinat rayonuna çıxarılıb.

Səhra döyüşü idarəetmə məntəqəsində müdafiə və hücum əməliyyatları planlaşdırılıb, müxtəlif fəaliyyətlər üzrə hesabatlar aparılıb və bölmənin tapşırıqları dəqiqləşdirilib.

Tank bölməsinin uzaq məsafələrə yüksək templə hücum etmək imkanlarının qiymətləndirildiyi qəfil yoxlamada hücum edən bölmələrin dəstəklənməsi, düşmənin atəş nöqtələrinin məhv edilməsi vəmüdafiə sisteminin yarılması tapşırıqları icra edilib.

Yoxlama zamanı əsas diqqət hədəfləri dəqiqliklə məhv etmək, düşmən piyadalarının əhvalını çökdürmək və düşmənin atəş zərbələrindən qorunmaq vərdişlərinin təkmilləşdirilməsinə yönəldilib.

Plana uyğun olaraq digər bölmələrdə də döyüşə hazırolmanın qəfil yoxlanılması davam etdiriləcək.

**Nəriman NƏCƏFOV**

## Naxçıvan şahmatçıları üçün uğurlu tur

*Naxçıvan Şahmat Mərkəzində keçirilən kişilər arasında şahmat üzrə Azərbaycan çempionatının 5-ci turu arxada qalıb.*



Liderlər sırasında yer alan beynəlxalq usta Pərviz Qasımov (2379) qrossmeyster Aydın Süleymanlı (2530) ilə görüşdə "sülh"ə imza atıb. Beynəlxalq usta Toğrul Həsənzadə (2292) də eyni nəticəni təkrarlayıb. FIDE ustası Xəzər Babazadə (2427) ilə görüşdə heç-heçə qeydə alınıb. Qrossmeyster Urfan Sevdimalıyev (2359) FIDE ustası Fərid Mustafayevi (2322), FIDE ustası Sadiq Məmmədov (2220) FIDE ustası Elmar Atakişiyevi (2240) sınağa çəkib. Hər iki görüş şahmatçılarımızın qələbəsi ilə yekunlaşıb. Bu turda beynəlxalq usta Talıb Babayev (2256) FIDE ustası Zaur Bayramovla (2357) görüşdə "ağ-qara" taxtanı məğlub tərk edib.

Turnir cədvəlində eyni xala malik olan qrossmeyster Vasif Durarbəyli (2615) beynəlxalq usta Əhməd Əhmədzadəni (2467), beynəlxalq usta Murad İbrahimli (2418) qrossmeyster Nicat Məmmədovu (2604) məğlub edib.

Qrossmeyster Misrətdin İsgəndərovla (2566) beynəlxalq usta İsmayıl Şahəliyevin (2380) qarşılaşmasında Misrətdin, qrossmeyster Eltac Səfərli (2597) ilə qrossmeyster Fərid Abbasovun qarşılaşmasında (2527) isə Eltac qələbəni bayram edib.

Bu turda beynəlxalq usta Məhəmməd Muradlı (2528) FIDE ustası Elvin Bayramovu (2280) üstələyib. FIDE ustası Vüqar Manafov (2299) FIDE ustası Uğur İlyaslı (2310) ilə heç-heçəyə razılaşıb. FIDE ustası Atilla Eynullayev (2324) isə FIDE ustası Şiroğlan Talıbov (2307) üzərində qələbə qazanıb.

Turnir cədvəlinə hazırda 4 xalla Vasif Durarbəyli və Murad İbrahimli başçılıq edirlər.

Qeyd edək ki, birinci mərhələ İsveçrə sistemi üzrə 9 turdan ibarət olacaq. İlkin mərhələdə 1-4-cü yerləri tutan şahmatçılar 2-ci mərhələdə play-off sistemi üzrə yarımfinal (I-IV, II-III) və finalda ölkə çempionunu müəyyən edəcəklər.

**Ceyhun MƏMMƏDOV**

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:* 14 yaşı tamam olmamış yetkinlik yaşına çatmayanların, habelə məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan sayılmış fiziki şəxslərin adından müqavilələri kimlər bağlaya bilər?**

***Cavab:*** 14 yaşı tamam olmamış yetkinlik yaşına çatmayanların, habelə məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan sayılmış fiziki şəxslərin adından müqavilələri yalnız onların qanuni nümayəndələri olan valideynləri, övladlığa götürənləri və qəyyumları bağlaya bilər. Müqavilədə yetkinlik yaşına çatmamış şəxsin yaşı, habelə müqaviləni onun adından bağlayan şəxslərin səlahiyyəti (qohumluq əlaqəsini təsdiq edən sənəd və ya məhkəmə qətnaməsi, yaxud qəyyumluq və himayəçilik orqanının qərarı əsasında) barədə məlumat əks olunur. Bu müqavilə qanuni nümayəndə və ya qəyyum tərəfindən imzalandıqdan sonra notariat qaydasında təsdiq edilir.

Qəyyum qəyyumluq və himayə orqanının qabaqcadan icazəsini almadan qəyyumluqda olanın əmlakının özgəninkiləşdirilməsinə, o cümlədən dəyişdirilməsinə və ya bağışlanmasına, bu əmlakın icarəyə, əvəzsiz istifadəyə verilməsinə və ya girov qoyulmasına dair əqdlər, qəyyumluqda olana mənsub hüquqlardan imtinaya, onun əmlakının bölüşdürülməsinə və ya bu əmlakdan payların ayrılmasına səbəb olan əqdləri, habelə qəyyumluqda olanın əmlakının azalmasına səbəb olan hər hansı digər əqdləri bağlaya bilməz.

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***

### İtmişdir

Məmmədov Eyvaz Rəşid oğlunun adına olan avtomobilin texniki pasportu və sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Ağayev Rasim Vəli oğlunun adına Naxçıvan şəhəri, Əlincə məhəlləsində yerləşən qeyri-yaşayış binasının 104011000216-05101-083005 nömrəli reyestr nömrəsi itdiyindən etibarsız sayılır.

***

Culfa rayonunun Milax kənd sakini Quliyev Nihad Saleh oğlunun adına olan 72 BE 036 nömrəli avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 137